**UOT 94(479.24); UOT 94**

**ARİF VEYİSOV**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universiteti Qazax filialının dosenti*
**veyisov.arif@bk.ru**

**TƏRLAN BƏDƏLOVA**
*Bakı Dövlət Universiteti Qazax filialının baş müəllimi*
**bedelova56@mail.ru**

# AZƏRBAYCAN DİPLOMATİYASI: AĞQOYUNLULAR VƏ AVROPA

DOI: https://doi.org/10.36719/2708-065X/105/80-85

*Ağqoyunlu imperiyası Azərbaycanın bu vaxta qədərki bütün tarixi ərzində Avropa ölkələri ilə ən geniş əlaqə yaratmış ilk dövlətimizdir. Uzun Həsənin Qərb ölkləri ilə belə geniş əlaqə yaratmaqda əsas məqsədi Azərbaycanın beynəlxalq ticarət əlaqələrini, ilk növbədə ipək ticarətini səhmana salmaq, bunun üçün Qara dəniz və Aralıq dənizinə çıxış yolu əldə etmək və Qərb ölkələri ilə ticarət əlaqəsi yaratmaq idi.*

*Açar sözlər:* Ağqoyunlu, Venesiya, xarici əlaqələr, Uzun Həsən, doplomatik münasibətlər.

***Giriş.*** XV əsrdə dünyanın tarixi inkişafında kəskin dönüş baş verməkdə idi. Yeni ölkələr kəşf etmək, müstəmləkələr tutmaq, Şərqdə ucuz xammal mənbələri və sərfəli bazarlar ələ keçirmək xristian ölkələrinin dövlət siyasətinə çevrilmişdi. Portuqaliya, İspaniya, Ingiltərə, Hollandiya, Fransa limanlarından uzaq səfərlərə çıxan hərbi-dəniz ekspedisyalarının Afrika, Hindistan, Iran körfəsi, Ərəbistan sahillərini qana qərq edən ilk top atəşləri Şərqlə Qərb arasındakı tarixi müvaziətin xristianlığın xeyrinə dəyişməsindən xəbər verirdi [2, s.115-117].

Dünya hərb sənətində də dəyişikliklər gedirdi. Odlu silahların, ilk növbədə artilleriyanın və onunla davranmağı bacaran piyada qüvvələrin rolu artmışdı. Xristian dövlətləri bu sahədə Şərq ölkələrini qabaqlamışdılar. Təkcə Osmanlı imperiyası istisna edilməklə türk dünyasının, o cümlədən Azərbaycanın hərbi qüvvələri ənənəvi silahlarla silahlanmış atlı qoşunlarından ibarət idi.

Ən başlıcası o idi ki, dünyanın siyasi xəritəsi dəyişirdi. Bir çox ölkələrdə güclü mərkəzləşdirilmiş dövlətlərin yaranması prosesi başa çatırdı. Qərb qonşuluğumuzda qüdrətli Omsanlı imperiyası yaranmış, şimalda isə Böyük Moskva knyazlığı qüvvətlənir və güclü mərkəzləşmiş dövlətə çevrilirdi. Bir sözlə, Azərbaycanın başı üzərində qara buludlar sıxlaşır, yurdumuzun güclü dövlətlərin əhatəsinə düşəcəyi vaxt yaxınlaşırdı. Tarix doğma torpaqlarımızı ağır sinaq qarşısında qoymuşdu: ya Dərbənd keçidini əldən verməmək, Qara dəniz, Aralıq dənizi və İran körfəzinə gedən karvan yollarında, Xəzər-Volqa ticarət yolunda üstünlüyü əldə saxlamaq, ya da qüdrətli qonşuların tapdağı altına düşmək! Zamanın ağır imtahanından çıxmaq üçün bircə yol qalırdı ki, bu da bütün Azərbaycan torpaqlarını birləşdirib vahid və qüdrətli dövlət yaratmaqdan, müdrik xarici siyasət yeritməldən, ən müasir silahlarla təchiz olunmuş güclü orduya malik olmaqdan ibarət idi.Ona görə ki,bütün Şərq, o cümlədən Azərbaycan müstəmləkə işğallarının astanasında dayanmışdı.

Mürəkkəb tarixi şərait vətənin mənafeyini hər addımda satan siyasi dönüklər, çuğurlarla yanaşı görkəmli şəxsiyyətlər-dövlət xadimləri, sərkərdələr, diplomatlar da yetirir. XV əsrin ikinci yarısında Azərbaycanı qüdrətli hərbi-siyasi varlığa çevirməyə çalışan belə dövlət xadimlərindən biri Ağqoyunlu Uzun Həsən olmudur. Ağqoyunlular xalqımızın təşəkkülündə mühüm rol oynamış oğuz tayfalarındandır. Bayraqlarında ağ qoç rəmzi olan bu böyük tayfa birliyi hələ VI əsrin sonu - VII əsrin əvvəllərində Cənubi Qafqazda, başlıca olaraq Qafqaz dağları ilə Araz çayı arasındakı ərazidə, o cümlədən Qarabağda, Göycə gölü (indiki Sevan) ətrafındakı torpaqlarda, Alagöz yaylaqlarında və başqa yerlərdə yaşayırdılar. "Mədəni" qonşularımız hazırda "Ermənistan" adlanan dədə-baba torpaqlarımızdakı ağqoyunlu və qaraqoyunlulardan qalma qədim qəbirstanları qoç heykəlləri ilə birlikdə yerlə yeskan etmişlər [4, s.201].

Ağqoyunluların ön dəstələri Azərbaycanın Cənub rayonları, Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat vadiləri də daxil olmaqla çox geniş ərazidə yayılmışdı. Ağqoyunlu tayfaların VI əsrdən başlayaraq bu geniş coğrafi rayonun hərbi-siyasi tarixində fəal iştirak etmişdilər.Yeri gəlmişkən qeyd edək ki, bu tayfalar göstərilən böyük ərazidə "Kitabi-Dədə Qorqud" dastanlarının yayılmasında da mühüm rol oynamışlar. Ağqoyunlu tayfa birliyində Bayandurlar tayfası hakim rol oynayırdı. Əvvəllər Ağqoyunlu tayfasını, sonralar eyni adlı tayfa birliyini, dövləti, nəhayət imperiyanı da Bayandurlar sülaləsi idarə edirdi.Sülalənin ən görkəmli hökmdarı Uzun Həsən (1453-1478) tarixən qısa müddət əsrzində bir çox Kiçik Asiya hakimlərini, Qaraqoyunlu Cahanşahı, Azərbaycana hücum edən Teymuri Əbu Səidi məğlub edərək XV əsrin 60-ci illərinin sonunda paytaxtı Təbriz olan böyük Azərbaycan dövləti yaratdı.

Kürdən cənubdakı bütün Azərbaycan ərazisini və Ağqoyunluların Diyarbəkir olmaqla Şərqi Anadoludakı torpaqlarını əhatə edən bu dövlət çox çəkmədən Qərbi İran, Kürdüstan, İraq, Ermənistan, Şimal-Şərqi Gürcüstan və s. yerləri də özünə birləşdirib geniş ərazidə imperiyaya çevrildi. Teymuri Əbu Səidin hərbi qüvvələrini darmadağın etdikdən sonra onun taxt-tac rəqibi Məhəmməd Yadigarı Teymuri hakimi təyin edən Uzun Həsən müvəqqəti olaraq Teymurilər dövlətini də özündən asılı hala saldı. Mürəkkəb daxili və beynəlxalq şəraitdə Azərbayncanı qüdrətli dövlətə çevirməyə çalışan Uzun Həsən xüsusi "Qanunnamə" hazırlatdı və geniş islahatlara başladı. Əhalidən alınan vergilər azaldıldı. Bir-biri ilə didişən azğınlaşmış iri feodal qruplarının əl-qolu yığıldı. Daimi nizami qoşun yaradılmasına başlandı. Görkəmlii mütəfəkkirlər,elm və sənət adamları saraya cəlb olundu. Ağqoyunlu hökmdarının şəxsi kitabxanasında 58 alim çalışırdı.

Uzun Həsən dövründə Azərbaycan özünün xarici siyasət tarixində yeni mərhələyə qədəm qoydu. Yurdumuz fəal xarici siyasət meydanına çıxdı.Həm Şərqdə,həm Qərbdə dünyanın ən tanınmış dövlətlərindən birinə çevrildi. Bu zaman Ağqoyunlularla Venesiya respublikası, Böyük Moskva knyazlığı, Böyük Orda, Polşa, Macaristan, Avstirya, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neopal krallığı, Rodos, Kipir, Qaraman əmirliyi, Misir, Hindistan və bir çox başqa ölkələr arasında diplomatik əlaqə yaranmışdı. Uzun Həsənin sarayına axışan xarici diplomatların ardı-arası kəsilmirdi. Venesiya respublikasının isə burada daimi səfirliyi vardı [1, s.387].

Ağqoyunlu imperiyası Azərbaycanın bu vaxta qədərki bütün tarixi ərzində Avropa ölkələri ilə ən geniş əlaqə yaratmış ilk dövlətimizdir. Uzun Həsənin Qərb ölkləri ilə belə geniş əlaqə yaratmaqda əsas məqsədi Azərbaycanın beynəlxalq ticarət əlaqələrini, ilk növbədə ipək ticarətini səhmənə salmaq, bunun üçün Qara dəniz və Aralıq dənizinə çıxış yolu əldə etmək və Qərb ölkələri ilə ticarət əlaqəsi yaratmaq idi. Digər tərəfdən öz ordusuna müasir silahlar almaq, Azərbaycanda topçuluq sənətini inkişaq etdirmək üçün Avropadan artilleriya müttəxəsisləri dəvət etmək istəyirdi.

Uzun Həsənin Avropa ölkələri ilə yaxınlaşmaq siyasəti xristiyan dünyası üçün göydəndüşmə oldu. Bu siyasətinə ilk "xeyir-dua"nı Roma papası verdi. Vaxtilə bütün xrtistian dünyasını şərq xalqlarına qarşı "xaç müharibələri" nə qaldıran, monqolların əli ilə səlcuqlara arxadan zərbə vurmaq üçün uzaq Qaraqoruma-Böyük Monqol imperiyasının paytaxtına elçilər göndərən, İldırım Bəyazidi məğlub etdiyi üçün Teymurun "şərəfinə" üç gün ərzində kilsə zənglərinin həyəcanlı sədaları altında bütün Avropada şükranlıq duası oxutduran Roma papaları şərq dövlətlərini, türk hökmdarlarını bir-birinin əli ilə məğlub etməyin ustası idilər. XV əsrin ortalarında Osmanlı imperiyasının sürətlə Avropanın içərilərinə doğru irəlilədiyi bir zamanda Roma papalarının, xristian dövlətlərinin "arxadan zərbə vurmaq" siyasəti yenidən canlandı. Qərbin məkrli planına əsasən bu dəfə osmanlılara ağqoyunluların əli ilə zərbə endirilməli idi. Buna görə də Qərb dünyası Uzun Həsəni "II Teymur" adlandırır və ona böyük ümidlər bəsləyirdi.

Ağqoyunlularla Qərb ölkələri arasında əlaqələrdə Trabzon yunan dövləti vasitəçilik edirdi. Qara dənizin Kiçik Asiya sahilindəki bu kiçik yunan imperatorluğu ilə Oğuz eli arasındakı əlaqələrin qədim tarixi var. Bu əlaqələr "Kitabi-Dədə Qorqud" dastanlarında da öz əksini tapmışdır. Osmanlılardan ehtiyat edən Trabzon hakimləri həmişə Ağqoyunlulara sığınırdılar. Ağqoyunlu hakimləri bir qayda olaraq Trabzon imperatorlarının qızlarına evlənirdilər. Görkəmli Ağqoyunlu hökmdarı Uzun Həsənin geniya imperator IV İoanın qızı Feodoranı-Dəspinə Xatunu almışdı. Uzun Həsən Dəspinə Xatundan doğulan qızı Martanı-Aləmşah bəyimi bacısı oğlu Şeyx Heydərə vermiş, bu izdivacdan Səfəvi hökmdarı Şah İsmayıl doğulmuşdu [3, s.100-101].

Ağqoyunlular Trabzona öz mülkləri kimi baxırdılar. Məşhur səyyah Övliya Çələbi Trabzondan bəhs edərkən vaxtilə bu şəhəri "Azərbaycan hakimi sultan Uzun Həsənin genuyalıların əlindən aldığını", Ağqoyunlu hökmdarlarının bu şəhərdə "böyük bir daş körpü saldıqlarını" yazır. Ağqoyunlular Trabzon üçün müttəfiq, Trabzon limanı isə Ağqoyunlulardan ötrü Qara dənizə çıxış yolu rolunu oynayırdı. Konstantinopolu 1453-cü ildə süqutundan sonra Roma papaları aramsız olraq Trabon sarayına elçilər göndərir, bu dövlətin vasitəçiliyi ilə Uzun Həsən başda olmaqla bütün Kiçik Asiya hakimlərini, habelə gürcü knyazlarını Osmanlı imperiyasıa qarşı müharibəyə qaldırmaya çalışırdılar. 1458-1460-cı illərdə papa nümayəndəsi Bolonyalı Ludoviqin apardığı danışıqlar nəticəsində Uzun Həsənin elçisi "Şərq ölkələrini təmsil edən" bir diplomatik heyətin başında İtaliyaya gedib Roma papası ilə danışıqlar aparmışdı.

Roma papası və başqa Qərb dövlətlərinin arxada ona qarşı hərbi-siyasi blok yaratmaq məqsədilə danışıqlar apardığını izləyən II Mehmet Trabzonu və Şərqi Anadoludakı başqa kiçik feodal dövlətlərini aradan qaldırmaq üçün hərbi əməliyyatlara başladı. Növbə Trabzona çatdıqda onu dənizdən mühasirəyə aldırdı və şəhərə hücum zamanı arxadan təhlükəsizliyini təmin etmək üçün bütün hərbi qüvvələrini Ağqoyunlular üzərinə yeritdi. Konstantinopolun fatehi Ağqoyunlu sərhədlərini keçib Ərzincan yaxınlığında düşərgə saldı və Uzun Həsənlə həlledici döyüşə hazırlaşmağa başladı. Odlu silahlara malik olan qüvvətli Osmanlı ordusunun o zaman paytaxtı Diyarbəkir olan Kiçik Ağqoyunlu hakimliyini aradan qaaldırmaq təhlükəsi yarandı. Osmanlı sultanı ilə danışıqlara girməkdən başqa əlac qalmadı.

Fateh Sultan Mehmetin Yassıçəmən yaylağındakı hərbi düşərgəsinə gələn Ağqoyunlu elçilərinə Uzun Həsənin anası Sara Xatun başçılıq edirdi. Sara Xatun o dövrün geniş şöhrət qazanmış görkəmli dövlət xadimi idi. Turalı bəyin ölümündən sonra Ağqoyunlu dövlətinin müstəqilliyinin qorunub saxlanmasında, ara müharibələri və saray çəkişmələrinin aradan qaldırılmasında onun çox böyük rolu olmuşdu. Sara Xatun bütün Şərqdə yeganə diplomat qadın idi. Təbrizə gələn əcnəbi diplomatlar onunla danışıqlar aparırdılar. Venesiya hökuməti 1473-cü ilin fevralında Uzun Həsən sarayına yola düşən növbəti səfiri İosafat Barboraya belə bir məxfi tapşırıq vermişdi: "Hökmdarın anasına da baş çək, ona ehtiram göstər, hədiyyələr ver" [4, s.310].

Sara Xatun nəinki ayrı-ayrı xarici ölkə diplomatları ilə, həmçinin Teymuri hökmdarı Əbu Səid, Osmanlı imperatoru Fateh Sultan Mehmet kimi dövlət başçıları ilə də danışıqlar aparmış, Azərbaycanın xarici siyasət mənəfeyini uğurla müdafiə etmişdi. Bir diplomat kimi Sara Xatunun fəaliyyətində onun Fateh Sultan Mehmetlə apardığı 1461-ci il Yassıçəmən danışıqları və burda imzaladığı sülh müqaviləsi mühüm yer tutur. Omsanlı sultanı ilə danışıqlara gedərkən Uzun Həsn onun qarşısında bir-birindən çətin iki vəzifə qoymuşdu: sultanın Ağqoyunlular üzərinə hücumunu dayandırmaq: mümkün olarsa, onu Trabzonu fəth etmək fikrindəndə daşındırmaq.

Mənbələr göstərir ki, Fateh Sultan Mehmet öz ordugahında məşhur diplomatımızı ehtiramla qarşıladı. Danışıqların bütün gedişi ərzində onlar bir-birinə "Ana"-"Oğul" deyə müraciət etdilər. Yassıçəmən danışıqları nəticəsində Oğuz elinin ağbirçəyi iki türk cahangiri arasında qanlı toqquşmanın qarşısını ala bildi. Ağqoyunlu-Osmanlı sülh müqabiləsi bağlandı. Ağqoyunlu ulusunun aradan qaldırılması təhlükəsi sovuşdu. Sultan II Mehmet özünün bütün hərbi qüvvələrini Trabzon üzərinə yeritdi. Trabzon səfəri zamanı Fateh Sultan Mehmeti müşayət edən Sara Xatun daha bir təşəbbüs göstərdi. Trabzon torpaqlarının gəlininə məxsus olduğunu bildirdi və Qara dəniz sahillərindəki bir çox əlverişli strateji məntəqəyə Ağqoyunluların qanuni varislik hüququnu irəli sürdü. Lakin Türkiyə sultanı Trabzonu fəth etmək niyyətindən dönmədi. Humanizm fəlsəfəsinə yaxından bələd olan Sara Xatunun diplomatiyası sülh və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanırdı, nahaq qan tökülməsi əleyhinə idi. Bu baxımdan təsadüfi deyil ki, II Mehmetin hərbi qüvvələri Trabzona yaxınlaşarkən dəfələrlə imperator Davidə məktub göndərərək müqamət göstərməyin faydasız olduğunu bildirdi və təslim olmağı təklif etdi. O Trabzon imperatoruna vəd verdi ki, bu təklifi qəbul edəcəyi halda onun özünün və bütün ailəsinin toxunulmazlığı təmin olunacaqdır. Nəticədə Sara Xatunun vasitəçiliyi ilə Trabzon qan tökülmədn təslim oldu. Azərbaycan diplomatı vədinə sadiq qalaraq imperator ailəsinin toxunulmazlığını təmin etdi. Lakin əksər tədqiqatçılar II Mehmetin Trabzon hakimi David Komninin İstanbula aparıb edam etdirməsini təsdiqləyir. Sara Xatun Trabzonda qaldığı günlərdə bir diplomat kimi sonuncu addımını da atdı. Trabzon xəzinəsini Osmanlı Sultanı ilə bölüşdürərək Ağqoyunlu sa-

rayına döndü. Ağqoyunlularla Qərb dövlətləri arasındakı əlaqələrdə Trabzondan başqa bir də Qaraman bəyliyi vasitəçilik edirdi. Kiçik Asiyasnın Aralıq dənizi sahillərində paytaxtı Konya olan bir oğuz dövləti də Ağqoyunluların əski müttəfiqi idi. Xalqımızın soy kökündə duran türk tayfalarından biri olan qaramanlar Aralıq dənizi sahillərinə Azərbaycandan köçüb getmişdiər. Osmanlıların güclənməsindən təhlükəyə düşən Qaraman bəyləri Uzun Həsənlə bir cəbhədə çıxır edir, Ağqoyunlu dövləti ilə qərb ölkələri arasında elçi mübadiləsinə fəal yardım göstərirdilər. Ağqoyunlular məhs Qaraman bəylərinin vasitəçiliyi ilə Aralıq dənizinin şərqindəki Kipr və Rodos dövlətləri ilə əlaqə yaratmışdılar.

Qərbdə "Türk təhlükəsi" nə qarşı səlib yürüşü təbliğatına dirijorluq edən Roma papaları Avropa dövlətlərinin diqqətini osmanlıların arxasına-Ağqoyunlu dövlətinə yönəltmək üçün dəridən-qabıqdan çıxırdılar. Katolik kilsəsinin başçıları II Kalikst, II Pavel və II Piy özləri də Ağqoyunlu sarayına elçilər göndərmiş, Uzun Həsənlə birbaşa diplomatik əlaqə yaratmışdılar [4, s.389].

Ağqoyunlular Azərbaycanla qədim ticarət münasibətlərinə malik olan İtaliya ilə geniş əlaqə saxlayırdılar. Venesiya ticarət respublikası ilə əlaqələrimiz daha geniş idi. Osmanlı işğalları nəticəsində şərq ticarətindən, xüsusi ilə Azərbaycan ipəyindən əli çıxan Venesiya respublikasının senatı 1463-cü il dekabrın 2-də Ağqoyunlu dövləti ilə ittifaqa girmək barədə xüsusi qərar qəbu etdi: Lazaro Kvirino Uzun Həsən sayarına göndərildi. Buna cavab olaraq Ağqoyunlu diplomatı Məhəmmədin başçılıq etdiyi elçi heyəti Hələb-Rodos-Aralıq dənizi yolu ilə 1464-cü il martın 13-də Venesiyaya gəldi. Azərbaycan elçiləri İtaliyada böyük şərafətlə qarşılandılar. Uzun Həsənin məktubu Venesiya hökumətinə təqdim edildi.

1464-cü il sentyabrın 26-də Ağqoyunlu elçilərinin vətənə dönməsi münasibəti ilə senatın xüsusi yığıncağı keçirildi. İki dövlət arasında ittifaq müqabiləsi təsdiq olundu və Venesiya hökumətinin Uzun Həsənə göndərdiyi məktubu məzmunu müzakirə edildi. Ağqoyunlu elçilərinin Suriyaya qədər bütün yol xərcini Venesiya hökuməti öz üzərinə götürdü. Uzun Həsən və Ağqoyunlu elçiləri üçün zərxara, məxmər, mahud parçalaradan ibarət hədiyyələr, yol üçün qızıl pulla xərclik ayrıldı. Rodos adasına çatdıqda Venesiyanın hərbi-dəniz donanması Ağqoyunlu elçilərinə nümayiş etdirildi və bu qüvvələrin Uzun Həsənin göstərişi ilə hərəkət edəcəyi bildirildi. Bundan sonra Ağqoyunlu-Venesiya əlaqələri müntəzəm xarakter almağa başladı.

1465-ci ildə növbəti Ağqoyunlu elçisi Həsən Əzən İtaliyaya getdi.Ağqoyunlu hökmdarı və onun arvadı Dəspinə Xatunun məktubları Venesiya hökumətinə təqdim olundu. Danışıqlar nəticəsində iki dövlətin, Venesiyanın Hələbdəki konsulluğu vasitəsilə əlaqə saxlaması qərarlaşdırıldı. Ağqoyunlu diplomatı Venesiyadan Uzun Həsənin və Dəspinə Xatunun ünvanına yazılmış məktublarla döndü [2, s.209].

Ağqoyunluların Qərb ölkələri ilə diplomatik əlaqələrinin coğrafiyası genişlənməkdə idi. 1468-1471-ci illərdə Uzun Həsən Polşa,Roma və Venesiyaya bir neçə elçi heyəti göndərdi. 1471-ci ildə Azərbaycan diplomatı Murad bəylə danışıqlardan sonra Venesiya hökuməti Təbrizdə daimi səfirlik açmağı qərara aldı. Uzun Həsən sarayı ilə qohum olan Katerino Zeno Azərbaycana səfir göndərildi. Katerino Zeno Uzun Həsənin arvadı Dəspina Xatunun-Feodoranın bacısı qızı Violantaya, evlənmişdi. Zenoya verilmiş məxfi tapşırıqlardan, 18 may və 10 sentyabr 1471-ci il məxfi tapşırıqlardan aydın olur ki, o Uzun Həsənlə II Mehmet arasındakı rəqabətdən istifadə edib Ağqoyunlu dövlətini Türkiyəyə qarşı müharibəyə qaldırmalı idi. Uzun Həsənin yunan arvadı da bu işə cəlb olunmaı idi. Məxfi tapşırıqda qeyd olunurdu ki, "Çalış ki, Dəspinə Xatun ərini Türkiyəyə qarşı müharibəyə təhrik etsi və bu haqda bizə məktub yazsın" [1, s.104].

Qeyd etmək lazımdır ki, o zaman Uzun Həsənin Türkiyəyə qarşı müharibəyə başlamaq planı yox idi. O, Aralıq dənizinə çıxış yolu açmaq üçün Suriyanı tutmaq niyətində idi. Uzun Həsənin nənəsi - Sara Xatunun anası Suriyanın xristian əsilzadələrindən birinin qızı olmuşdu. Lakin Avropadakı müttəfiqlərin şişirdilmiş məlumatları, 100 gəmidən ibarət Qərb donamasının guya Uzun Həsənin sərəncamı ilə hərəkət etmək üçün Aralıq dənizinin şərqinə göndərilməsi, habelə sərkərdələrin, Azərbaycan sarayına sığınmış keçmiş Kiçik Asiya hakimlərinin, o cümlədən Qaraman şəhzadələrinin təhriki ilə Ağqoyunlu hökmdarının hərbi planı dəyişdi. Sultan II Mehmetin Avropada hərbi əməliyyatda olmasından istifadə edən Ağqoyunlu dövləti 1472-ci ilin baharında Türkiyəyə qarşı müharibəyə başladı. Bununla Qərbin məkrli siyasətinin yeni səhifəsi açıldı-Azərbaycanın Ağqoyunlu və Səfəvi döv-

lətləri ilə Osmanlı imperiyası arasında qanlı müharibələr, daha döğrusu uzun sürən qardaş qırğını dövrü başlandı. Mirzə Yusif xanın başçılıq etdiyi Ağqoyunlu hərbi qüvvələri Ərzicandan yürüşə başlayaraq bütün Kiçik Asiyanı-Türkiyə ərazisini keçib Aralıq dənizi sahilinə çıxdılar. Lakin burada məlum oldu ki, müttəfiqlərin birləşmiş hərbi dəniz qüvvələrinin Aralıq dənizinin şərqinə göndərilməsi haqqında məlumat yalan imiş. Ağqoyunlu dövlətinin şərqdən Türkiyəyə qarşı müharibəyə qaldırmağa müvəffəq olan Qərb dövlətləri Osmanlı imperiyası ilə gizli danışıqlara başlamışdılar. Beləliklə, Ağqoyunlular Qaraman ərazisindən-Aralıq dənizi sahilindən geri oturduldular və ağır məğlubiyyətə uğradılar.

Avropada və Asiyadakı düşmənlərini təkləyib məğlub etmək siyasəti yeridən Sultan II Mehmet bu dəfə qəti olaraq özünün bütün hərbi qüvvələrini Anadolunun şərqinə-Ağqoyunlulara qarşı yönəltmək qərarına gəldi. Mürəkkəb vəziyyətə düşməsinə baxmayaraq cəsarətli xarici siyasət yeridən Uzun Həsən bir-birinin ardınca öz elçiləri İshaq və Hacı Məhəmmədi odlu silahlar almaq və altilleriya mütəxəsisləri gətirmək üçün İtaliyaya yola saldı. Venesiya, Roma, Neopalda danışıqlar aparıldı. Uzun Həsənin göstərişi ilə hərəkət edən Hacı Məhəmməd Qərbdəki müttəfiqlərin "şirin" vədlərinə məhəl qoymadı və nəzərdə tutulan silahları, artilleriya mütəxəsislərini Aralıq dənizi sahilinə özü gətirmək qərarına gəldi. Sultanı qabaqlamağa çalışan Uzun Həsən 1472-1473-cü illərin qışında Fəratın sağ sahilindəki məmlük torpaqlarını ələ keçirib Aralıq dənizi sahilinə çıxmağa çalışsa da, buna nail ola bilməsi [3, s.129].

1473-cü il fevralın 18-də Vensiyadan Aralıq dənizinin şərq sahilinə doğru 4 gəmi istiqamət götürdü.Azərbaycan diplomatı Hacı Məhəmmədin, habelə Venesiya,Roma papası və Neopal kralı elçilərinin müşayiyət etdiyi bu gəmilərə Ağqoyunlular üçün müxtəlif odlu silahlar, o cümlədən ağır toplar, barut və başqa döyüş ləvazimatı yükənmişdi. Həmin gəmilərlə Azərbaycan hökmdarının sərəncamına bir qrup artilleriya mütəxəsisi, başlıca olaraq toptökən ustalar göndərilirdi.

1473-cü il martın 29-da silah gəmiləri Kiprə çatdı və burada-Aralıq dənizinin şərqində hərbi əməliyyat aparacaq 99 gəmidən ibarət müttəfiq donanması ilə birləşdi. Hacı Mədəmməd, Kiprə toplanmış bütün Qərb elçiləri və Venesiya admiralı Pyetro Meçeniqo Uzun Həsənə məktublar göndərdilər. 1473-cü ilin iyulunda Ağqoyunlu hökmdarı təqribən 70 min nəfərlik qoşunun başında Aralıq dənizi sahilində müttəfiqlərlə birləşmək üçün yürüşə başladı. Lakin bu zaman Uzun Həsənin hərbi planlarından yaxşı xəbərdar olan II Mehmetin sürətlə Kiçik Asiyanın şərqinə doğru hərəkət edən 220 minlik ordusu artıq Ərzincan yaxınlığına çatmışdı.

***Nəticə.*** Beləliklə, qərb diplomatiyası və cahangirlik siyasəti iki böyük sərkərdəni Fərat sahilində qarşılaşdırdı.1473-cü il avqustun 1-də və 11-də türk dünyası tarixinin iki dəhşətli vuruşması baş verdi: Malatya və Otluqbeli (Tərcan) döyüşləri, birincisində Uzun Həsən, ikinci-həlledici vuruşmada Sultan II Mehmet üstün gəldi. Starteji baxımdan isə bu, Qərb diplomatiyasının qələbəsi idi. Çünki Ağyoyunlu-Türkiyə müharibəsi əslində Azərbaycanın feodal dövlətləri ilə Osmanlı imperiyası arasında hərbi-siyasi qarşıdurma dövrünün başlanğıcını qoydu. Qərb dövlətləri bu münasibətləri daim müharibə həddində saxlamaq siyasəti yeridirdilər. Sonralar bu siyasətə çar Rusiyası da qoşuldu. Yaxınlaşan müstəmləkə işğalları ərəfəsində Yaxın və Orta Şərqin qüvvətli dövlətlərinin bir-birinin əli ilə zəif salmaq xristian dünyasının xeyrinə idi [2, s.117].

Ağqoyunlulara qalib gəldikdən sonra Osmanlı imperiyasının Avropada irəliləməsi üçün əlverişli şərait yarandı. Ağqoyunlu-Avropa əlaqələri daha da genişləndi. Polşa, Macarıstan, Çexiya, Almaniya,Venesiya, Papalıq, Neapol krallığı və başqa dövlətlərlə danışıqlar aparıldı. Qərb elçiləri İosafad Barbaro, Paolo Onyibene, Ambrocco Kontarini, Baloniyalı Ludoviq, habelə Moskva elçisi Marko Pocco Təbrizə gəldilər. Lakin nə Uzun Həsən, nə də onun oğlu Sultan Yaqub geçmişin acı səhifəsini təkrar etmədilər: Ağqoyunlu dövlətini yenidən Omsanlı imperiyası ilə toqquşdurmaq siyasəti baş tutmadı [4, s.320].

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, (ən qədim zamanlardan XX əsrədək). I Cild. Ali məktəblər üçün dərslik. Z.M Bünyadovun və Y.B Yusifovun redaktəsilə Bakı, "Çıraq" nəşriyyatı, 2011, s.535
2. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2014, s.453.

3. Azərbaycan tarixi. III Cild, Bakı, 2007, s.592.
4. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, Təhsil nəşriyyatı, 2006, s.362

**АРИФ ВЕЙИСОВ**
*Доктор философии по педагогике,*
*Доцент Газахского филиала Бакинского Государственного Университета*

**ТАРЛАН БЕДЕЛОВА**
*Старший преподаватель Газахского филиала*
*Бакинского Государственного Университета*

## АЗЕРБАЙДЖАНСКАЯ ДИПЛОМАТИЯ: АГГОЮНЛУ И ЕВРОПА

Империя Аггоюнлу – первое государство за всю историю Азербайджана, установившее самые широкие связи с европейскими странами. Основной целью Узуна Гасана в создании столь широких связей со странами Запада было содействие международным торговым связям Азербайджана, в первую очередь торговле шелком, получение доступа к Черному и Средиземному морям, а также установление торговых отношений со странами Запада.

*Ключевые слова:* Аггоюнлу, Венеция, международные отношения, Узун Хасан, дипломатические отношения.

**ARIF VEYISOV**
*Doctor of Philosophy in Pedagogy,*
*associate professor of Gazakh branch of Baku State University*

**TARLAN BADALOVA**
*Senior lecturer of Gazakh branch of Baku State University*

## AZERBAIJAN DIPLOMACY: AGGOYUNLU AND EUROPE

Aggoyunlu Empire is the first state in the entire history of Azerbaijan, which established the widest ties with European countries. The main goal of Uzun Hasan in creating such extensive ties with Western countries was to facilitate international trade relations with Azerbaijan, primarily silk trade, gaining access to the Black and Mediterranean seas, and also establishing trade relations with Western countries.

*Keywords:* Aggoyunlu, Venice, international relations, Uzun Hasan, diplomatic relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 aprel 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.*
*Rəyçilər: s.e.d. İmaş Hacıyev, t.e.d. Qabil Əliyev.*